MİLLİ TƏRBİYƏ MƏKTƏBİ: "KİTABİ-DƏDƏ QORQUD"A YENİ BİR NƏZƏR

Pərişan Həsənova
Təhsil Problemləri İnstitutunun elmi işçisi

"Bu bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir"

H.Əliyev.

Açar sözlər: *milli tərbiyə məktəbi, mənəvi dəyərlər, adət-ənənə, mənəviyyat, müasirlik.*

Ключевые слова: *школа национального воспитания, моральные ценности, традиции, мораль, современность*

Key words: *school of national education, moral values, traditions, morality, contemporaneity*

Müasir təhsilimizin qarşısında duran ən mühüm vəzifələrdən biri milli mənsubiyyətinə, adət-ənənəsinə bağlı, bəşəri dəyərlərə yiyələnməyi bacaran vətəndaş yetişdirməkdir. Hazırda informasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətin bütün sahələrində dünyaya inteqrasiyanı təmin etməkdədir. Kimliyini, milli mənsubiyyətini dərk etməyən, tarixi köklərinin haradan qaynaqlandığını bilməyən şəxs öz ölkəsini təmsil edə bilməz. Bu mənada ulu babalarımızdan bizə miras qalan zəngin mənəvi irsimizi öyrənmək, onun elmi mahiyyətini açmaq, yetişməkdə olan gənc nəsli milli-mənəvi dəyərlərimiz, tarixi köklərimiz əsasında tərbiyə etmək, mənəvi sərvətlərimizi gələcək nəsillərə olduğu kimi çatdırmaq vacib məsələlərdəndir. Bu gün milli-mənəvi dəyərlərimizin, tarixi köklərimizin araşdırılmasına məhz Heydər Əliyevin irəli sürdüyü konseptual baxışla yanaşsaq daha düzgün olar. Belə ki, ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Gənclərinin Birinci Forumundakı nitqində demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz (2, 81). Bu baxımdan xalqımızın soy-kökünün qədimliyindən, mənəvi zənginliyindən xəbər verən "Kitabi-Dədə Qorqud" dastanını öyrənmək olduqca aktualdır. Soy-kökümüzün güzgüsü, əxlaq kodeksi sayılan "Kitabi-Dədə Qorqud" dastanı zamana görə bizdən ən uzaq dövrdən xəbər verən hikmətli bir kitabdır. Professor Əjdər Ağayev haqlı olaraq, "Dədə qorqud"u milli tərbiyə məktəbi adlandırır. O göstərir ki, bu dastan türk-oğuz xarakterini, məişətini, mənəviyyatını, şəxsi-fərdi xüsusiyyətlərini, onların həyat, insan, əməl, fəaliyyət haqqında baxışlarını anlamaq üçün ən gözəl mənbədir (1, 104).

Doğrudan da, "Kitabi-Dədə Qorqud" dastanına istinad etməklə gənc nəslin mənəvi tərbiyəsində əsas olan mənəvi dəyərləri formalaşdırmaq olar. Mənəvi tərbiyə-mənəvi hiss, mənəvi şüur və davranışı əhatə etməklə şəxsiyyətin formalaşmasında başlıca cəhət olan mənəviyyatın yaranmasını şərtləndirir. Mənəviyyat - şəxsiyyətin özünə, onu əhatə edənlərə, cəmiyyətə və onun real hadisələrə münasibətini, dünyagörüşünü, davranışını təzahür etdirən başlıca meyardır. "Kitabi-Dədə Qorqud" dastanımıda əks olunan mənəvi keyfiyyətlər xalqımızın mənəviyyat dünyasında bu gün də yaşamaqdadır. Bu kitab xalqımızın mənəviyyatını, davranış mədəniyyətini, yurdsevərliyini, ata-anaya, böyüyə, müdrik adamlara ehtiram göstərmək hisslərini, o cümlədən təlim-tərbiyə məsələlərini bədii-pedaqoji lövhələrlə əks etdirən zəngin bir mənəviyyat xəzinəsidir. Burada insanın sahib olduğu nəcib əxlaqi, mənəvi sərvətlər içərisində vətənpərvərlik, yoldaşlıq, dostluq və sədaqət, yaxşılıq və xeyirxahlıq, düzlük və doğruçuluq, böyüyə, ata-anaya, qardaşa, müdrik adamlara hörmətin şahidi oluruq.

Dastan epos olmaq etibarilə onun əsas ideyasını vətənpərvərlik təşkil edir. Belə ki, insan cəmiyyətinin formalaşmasının ilkin mərhələsində aləm haqqında təsəvvürlərin birinci qatı mifologiyada cəmlənmişdir. Sonrakı qat isə epos adlanır. Epos etnoslararası münasibətlərin, münaqişələrin və müharibələrin nəticəsi olaraq yarandığından onun əsas ana xəttini, ideyasını qəhrəmanlıq, qoçaqlıq, cəsurluq, yurdsevərlik təşkil edir. Dastanın bütün boylarında qarşıya qoyulan əsas məqsəd el-obanı, onun bütövlüyünü, istiqlaliyyətini, təbii sərvətlərini qorumaqdır. Xalqımızın genetik kodunda yer tutan vətənpərvərlik hissi zaman-zaman qəhrəmanların, fədakar insanların yetişməsinə zəmin yaratmışdır. Bunun üçün gənclərə aşılanan vətənpərvərlik tərbiyəsi mühüm şərtdir. Müharibə şəraitində yaşayan xalqımız üçün bu keyfiyyətlərin təbliğ olunması olduqca aktual və qiymətlidir. Azərbaycana qarşı qəsbkarlıq, torpaqlarımızın 20%-dən çoxunun düşmən tapdağı altında olması "Dədə Qorqud mövqeyindən təhlil olunarsa belə qənaətə gəlmək olar ki, igid, cəsarətli milli qəhrəmanlarımız əzmkarlıq nümayiş etdirməklə ağlın və fiziki qüvvənin vəhdəti ilə, özünüdərkin və vətənə məhəbbətin gücü ilə yağı düşməni basa bilər.

Dastanda deyilir:

Bildiyini unutmasa ağıl yaxşıdır (3, 194).

Buradan belə qənaətə gəlmək mümkündür ki, Oğuzlarda biliyin və intellektin mövcudluğu hələ son nəticə demək deyil. Əgər yaddaş, hafizə inkişaf etdirilməyibsə, o zaman qazanılan bilik də unudulub gedəcəkdir. Müstəqilliyimizin ilk illərindən başlayaraq təhsilimizdə özünü büruzə verən mütərəqqi meyillərdən biri də təfəkkürün inkişafına yönəlmiş təlim metod və texnologiyalarıdır. Deməli, bilik o zaman öz səmərəli nəticəsi ni verə bilər ki, o, unudulmaz, yaddaşda qalar, təfəkkürün idraki inkişafına xidmət edər.

Oğuz cəmiyyətində ağıllı, müdrik, həm də igid insanların əvəzolunmaz, qiymətli hesab olunması, onlara xüsusi qayğı və diqqətlə yanaşılması, hətta hökmdar yanında onların xüsusi yeri olmaları faktı maraq doğurur. "Qanlı qoca oğlu Qanturalı boyu"nda göstərilir: "Oğuzlarda dörd igid üzörtüyü ilə gəzirdi: biri Qanturalı, biri Qaraçəkir və oğlu Qırxqımıq, biri də boz ayğırlı Beyrək idi" (3, 185). Deməli, Oğuz eli əvəzolunmaz igidlərini hətta gözdən-nəzərdən də qoruyardı. Oğuzların belə xüsusiyyəti müasir dövrümüz üçün

də səciyyəvidir. Bu gün Azərbaycanda insanın hərtərəfli inkişafı maddi kapitalın insan kapitalına çevrilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkə başçısının insan amilinə yüksək səviyyədə önəm verməsi, ağıllı, savadlı insanların idarəetmə, təşkilati, eləcə də təlim-tərbiyə işinə cəlb olunması cəmiyyətdə sağlam mənəvi mühit yaradır. Bu da öz növbəsində cəmiyyətin inkişafına təkan verir.

Dastandakı pedaqoji ideyaların müasirlik çalarları hazırkı gənclərin mükəmməl fiziki hazırlıq keçməsi, yüksək intellektual səviyyəyə nail olması, yurdsevərliyi, sədaqətliliyi, dözümlülüyü, cəsarətliliyi, sərvət toplamaq üçün deyil, kamil insan mənəviyyatına yiyələnmək cəhdləri ilə şərtləndirilir. «Hanı dediyim bəy-ərənlər, dünya mənim deyənlər? Əcəl gəldi, yer gizlədi. Fani dünya kimə qaldı? Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya» fəlsəfəsinə əsaslanan Dədə Qorqud öyrədir ki, nə qədər var-dövlət yığsan da ölüm bir gün səni o var-dövlətdən ayıracaqdır. İnsan gərək çalışıb o dövlətdən xalqın xeyrinə səmərəli istifadə etsin, torpağını, insanlarını inkişaf etdirsin, yurdunu qorusun, böyüyən gənclərin ağıllı, düşüncəli, azad, müstəqil, bir sözlə, kamilliyə çatmalarına nail olsun. Belə qənaətə gəlmək olar ki, «Kitabi-Dədə Qorqud» dastanı tarixi olduğu qədər də müasirdir.

Dastanda yüksək mənəvi keyfiyyətlərdən olan yaxşılıq, xeyirxahlıq, düzlük və doğruçuluq Oğuz qəhrəmanlarının ən nəcib keyfiyyətlərindəndir. Bu yüksək insani hiss – humanizm dastanın əvvəlindən axırınadək diqqət mərkəzində dayanır. Qalın Oğuz bəylərinin hamısının tövlə-tövlə atları, qatar-qatar dəvələri, sürülərlə qoyunu, bol axça – qızılı vardır. Məsələ burasındadır ki, Oğuz bəyləri həmin sərvətləri kimsədən gizlətmirlər. Onlar bu varidatı xeyirxahlıq naminə sərf etməyə hər an hazır olurlar. Xeyirxahlıq oğuzların qanından, soy-kökündən gələn bir irs olmaqla, onların adət-ənənələrində, mərasim və el şənliklərində təzahür edir. Dastandan görünür ki, Qazan xan ildə bir dəfə öz halalının əlindən tutub, evindən çıxır. Evində nəyi varsa, ehtiyacı olanlara, kasıblara paylanılır.

«Kitabi-Dədə Qorqud dastanında yoldaşlıq, dostluq və sədaqət tərbiyəsi mənəvi tərbiyənin əsas tərkib hissələrindən biri kimi verilir. Qeyd edilir ki, Oğuz elinin igidləri digər mənəvi-əxlaqi keyfiyyətləri ilə yanaşı, yoldaşlıq, dostluq, sədaqətlilik və etibarlılığı ilə də nümunədirlər. Oğuz igidləri namus, qeyrət, sədaqət, dəyanət kimi gözəl insani keyfiyyətlərin daşıyıcılarıdırlar. Onlar təmiz ürəkli, pak əxlaqlı, sədaqətli yoldaş, ər, dost, qardaş, övlad, ata, ana, həyat yoldaşıdırlar.

"Dədə Qorqud qəhrəmanları qarşılıqlı hörmət, hüsn-rəğbət, etibarlılıq münasibətlərinə xüsusi önəm verirlər. Nişanlısına sahib olan Beyrək «... yoldaşlarını çıxarmayınca, hasarı almayınca, muradıma çatmayım» - deyir. Qayıdıb yoldaşlarını azad edir, öz toyunu onların toyu ilə birgə qurur. Bu boyda biz təkcə Beyrəyin deyil, həm də nişanlısı Banuçiçəyin də etibarının şahidi oluruq. O, sevgilisi Beyrəyin yolunu 16 il gözləyir, yad təsirlərə qapılmır. Qaraca Çobanın öz dostuna sədaqəti qəhrəmanlıq səviyyəsinə yüksəlir.

Oğuz qadınları da həyat yoldaşlarına böyük ehtiramla yanaşırlar. Dastanda qadın həm cəfakeş ana, həm sədaqətli qadın, həm də ailəsinin, el-obasının xilaskarı olan bir qüvvə kimi verilir. Bu "Dirsə xan oğlu Buğac xan boyu"nda daha təsirlidir. Bu boyda qeyd olunur ki, Allah qarğadığı üçün Oğuz elinin də qarğadığı qara otaqda oturdulan Dirsə xan məhz qadınının ağıllı məsləhəti ilə oğul sahibi olur. Hadisələrin sonrakı gedişi göstərir ki, Tanrı da, Oğuz eli də onu düz qarğayıbmış. Dirsə xan nəzir-niyazla tapdığı bir oğlunu namərdlərin sözü ilə taxt-tac üstündə öldürməyə qərar verir. Dirsə xanın ovdan oğulsuz qayıtdığını görən ana namərdlərin "-ovdadır, bu gün-sabah gələr" – sözlərinə inanmır. Ata minib gedib oğlunu ölümcül, yaralı halda tapır. Boz atlı Xızırın məsləhəti ilə dağçiçəyi və öz südündən məlhəm hazırlayıb oğlunu sağaldır, onu ölümdən qurtarır. Bu fədakarlığı ilə qadın əri Dirsə xanı oğul qatili olmaqdan qurtarır. Qadının müdrikliyi bununla bitmir. O, ərinin oğlunu nə üçün öldürmək istədiyini öyrənməyincə oğlu Buğacı üzə çıxartmır, onu gizli saxlayır. Hadisəni Buğaca bildirmir ki, oğlu gedib atasından hesab istəyər. Bununla da Ana oğlunu ata qatili olmaqdan qurtarır. Vaxt gəlir namərdlər taxt-tacı ələ keçirmək üçün Dirsə xanı öldürmək qərarına gəlirlər. Onun əl-qolunu bağlayıb, döyüb dustaq edirlər. Hadisədən xəbər tutan Dirsə xanın arvadı oğlu Buğaca əhvalatı danışır və belə deyir:

Xan oğlum! Qalxıb yerindən ayağa dur!
Qırx igidini dəstənə qat!
Atanı o qırx namərddən qurtar!
Yeri, oğul!

Atan sənə qıydısa da, sən atana qıyma! – dedi.

Oğlan anasının sözünü sındırmadı. Atasını xilas etdi. Bu dəfə Ana nəinki oğlunu, ərini, həm də el-obanı namərdlərin qəsbkarlığından qurtardı, taxt-tacı əri, oğlu üçün qorudu.

Dastanda Dirsə xanın timsalında Oğuz ərəninin müəyyən hadisələrlə bağlı tərəddüdlü, anlaqsız hərəkətlərinin, müəyyən səhvlərinin şahidi oluruq. Bu onların özünə əminliyindən, arxayınlığından irəli gəlir. Türk ərəni bilir ki, hər hansı bir səhv edərkən onun arxasında bu səhvi aradan qaldırmağa qadir və onu bağışlaya biləcək bir qadını var. O, bu qadını elin adət-ənənəsi ilə, böyüklərin razılığı, Tanrının izni ilə sevib, seçib, sınayıb alır. El ağsaqqalı Dədə Qorqud qadınların xüsusiyyətlərini xarakterizə edərkən yaxşı olmayan qadınlar haqqında belə deyir: "Bunun kimisinin uşaqları böyüməsin! Ocağına bu cür arvad gəlməsin (3, s.131). Dədə Qorqud deyimlərindən alınan nəticə belədir: evin dayağı, böyüyü kişi nə də olsa qadın onu öz ailəsinə, əhatəsinə, cəmiyyətinə yüksək səviyyədə təqdim etməyi bacarmalı və buna çalışmalıdır. Çünki belə təqdimatın, ailənin qorunması üçün tərbiyəvi cəhətləri çoxdur.

«Kitabi-Dədə Qorud» dastanında böyüyə, ata-anaya, qardaşa, müdrik şəxslərə hörmət tərbiyəsi aparıcı xətt təşkil edir. Burada Oğuz cəmiyyətinin ağsaqqalı Dədə Qorquda xüsusi hörmət və ehtiram bəslənilir. Dədə Qorqud həm də müdrik insandır. Oğuzlar təkcə ağsaqqallığa, böyüklüyünə görə deyil, deyil, həm də insanın ağıl və düşüncəsinə, mənəvi keyfiyyətlərinə görə dəyər verir, ona ehtiram göstərirlər.

«Ana haqqı – Tanrı haqqı»- deyimli "Dədə Qoqud pedaqogikasında valideynlərə göstərilən ehtiramın necə ali səviyyədə olduğu meydana çıxır.

Oğuz igidlərinin böyüyə olan hörməti Ulu Tanrıya olan hörmət, ehtiram, məhəbbət və inamlarından irəli gəlir.

Dastan reallığı əks etdirdiyi üçün burada ağsaqqla, böyüyə qarşı çıxanların da olduğu qeyd olunur. Lakin onlar səhvlərini sonradan dərk edib bağışlanmalarını diləyirlər: el-obanı saymayan, böyüklərin üzünə ağ olan Dəli Qarcar el ağsaqqalı Dədə Qorqudun ağıllı, tədbirli sınaqları ilə yoluna qayıdır, səhvini başa düşür, bağışlanmasını istəyir. Allahına asi çıxan,

yaxınlarını ələ salan Dəli Domrul Tanrının qüvvəsi ilə yoluna qayıdır, tövbə edir, cəmiyyətə qoşulur. El-obaya qənim kəsilən, qaniçən Təpəgöz mifik obraz olasa da qəhrəman Basatın təzyiqləri ilə etdiyi hərəkətlərin peşimançılığını çəkir, aman istəyir. Hörmət və ehtiram əvəzsiz qalmadığı kimi, hörmətsizlik də öz acı aqibətini yaşayır. İnsanlığa qarşı çıxan Təpəgöz bütün yalvarışlarına baxmayaraq Basat tərəfindən öldürülür. Dastanda mifik obrazın təzahürü, dini təsirlər və ağlın fəhmi ilə insanlara təsirin qneseoloji mahiyyətinin olması nəticəsinə gəlmək olar. Bu mənada dastan mifik təfəkkürdən rasional təfəkkürə doğru inkişaf yolu keçən, hər işin ağlla görülməsinin zəruriliyini təbliğ edən bir cəmiyyətin - Oğuz cəmiyyətinin güzgüsü kimi təqdim olunur. Ziya Göyalpın sözləri ilə desək: "Türk tarixi başdan-başa bu mənəvi dəyərlər sərgisidir" (4, s.51).

Vaxtilə soy-kökümüzün güzgüsü sayılan "Dədə Qorqud" dastanının adının belə çəkilməsi xalqımıza yasaq idi. Hazırda ümumtəhsil məktəblərində, kollecdə, ali məktəblərdə "Kitabi-Dədə Qorqud" dastanının tədrisinə geniş yer verilməsi müstəqil dövlətimizin Azərbaycan xalqına verdiyi töhfələrdən biridir. Dastandakı pedaqoji fikir və ideyaların üzə çıxarılıb araşdırılması pedaqoji prosesdə çalışan müəllimlər üçün böyük kömək ola bilər.

Rəyçi: prof. Ə.Ağayev

İstifadə edilmiş ədəbiyyat

1.Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005, 288 s.

2.«Dədə Qorqud dünyası». Bakı; Öndər, 2004, 206 s.

3."Kitabi-Dədə Qorqud». Bakı: Yazıçı, 1988, 265 s.

4. Göyalp.Z, Türkçülüyün əsasları. Bakı: Maarif 1991, 175 s.

5.Paksoy H.B. "İntroduction to Dede Korkut". Central Asia Reader: The Rediscovery of Histroy. New York: M.E.Sharpe, 1994, səh. 202.

П. Гасанова

Еще раз о
«Китаби – Деде Горгуде»

Резюме

Наряду с тем, что эпос «Китаби-Деде Горгуд» отражает историю тюркского мира, в том числе азербайджанского народа, он тоже является этнопедагогическим памятником нашего народа. Он оказал сильное воздействие на развитие педагогической мысли и в последующей за ним эпохе.

Выявление педагогической мысли и идей эпоса, раскрытие их научной сущности может создать почву для развития научной педагогики в Азербайджане. Данный эпос является памятником, извещающим о древности нашей истории, культуры.

Насколько значительным и важным с научной точки зрения является исследование эпоса «Китаби-Деде Горгуд», настолько значительную роль играет оно в воспитании нашей молодежи в духе национально-духовных ценностей. Весьма актуальным является донесение содержания и идей эпоса до молодого поколения. Оттенки современности педагогических идей эпоса обусловливаются прохождением современной молодежью совершенной физической подготовки, достижением ими высокого интеллектуального уровня, любовью к родине, верностью, выносливостью, отважностью, попытками достижения морального состояния совершенного человека, а не накопления богатства. Таким образом,

эпос является современным настолько же, наскольно и историческим.

P. Hasanova

School of national upbringing look
"Kitabi - Dede Gorgud" again

Summary

Along with the fact that the epic "Kitabi Dada Gorgud" reflects the history of the Turkic world, including the Azerbaijani people, he is also a monument to our nation etnopedagogicheskim. He had a strong influence on the development of educational thought and follow him in age.

Identification of educational thought and ideas of the epic, the disclosure of their scientific nature may pave the way for the development of scientific pedagogy in Azerbaijan.

How significant and important from a scientific point of view is the study of the epic "Kitabi Dada Gorgud", so it plays a significant role in educating our youth in the spirit of national and spiritual values. Is very relevant message content and ideas of the epic to the younger generation. Shades of modern pedagogical ideas are caused by the passage of the epic of modern youth of perfect physical fitness, achievement of a high intellectual level, love of country, loyalty, endurance, courage, efforts to achieve the moral state of a perfect man, and not wealth. Thus, the modern epic is so well naskolno and historic.

Story line passes through the epic training to show respect for elders, parents, brother, wise. Right of the mother of God was considered the right. Nobody had the right to argue with his father. Respect for elders Oguz flowed out of respect, reverence, love and faith in God.

Təbrik edirik!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 aprel 2012-ci il tarixli sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 90 illik yubileyi münasibətilə təltif olunanlar sırasında professor Fərrux Rüstəmov da vardır. O, «əməkdar elm xadimi» fəxri adına layiq görülmüşdür.

Azərbaycan pedaqogikasının müasir problemləri, eləcə də, pedaqogika elminin keçmişi ilə bağlı sanballı araşdırmalar aparmış, kitabları və məqalələri ilə təhsil işçilərinə dəyərli töhfələr vermiş, pedaqogika üzrə elmlər doktoru, professor Fərrux Rüstəmov «Azərbaycan məktəbi» jurnalının redaksiya heyətinin üzvüdür. Prezidentin fərdi təqaüdçüləri - Ə. Ağayev, Ə. Əlizadə, H. Əhmədov, N. Kazımov, A.Təhmasib, həmçinin elm və təhsil təşkilatçıları A.Mehrabov, A.Zamanov, R.Mustafayeva, H.Məmmədova ilə çiyin-çiyinə çalışan Fərrux müəllim 90 ilə yaxın ömrü olan, həmişə öz amalına sadiq qalan, pedaqoji işçilərin yaxın köməkçisi «Azərbaycan məktəbi»nin yaradıcı heyətinin ən yaxın dostu və məsləhətçisidir.

Fəxri ad alması münasibəti ilə jurnalımızın redaksiya heyəti, yaradıcı kollektivi və çoxsaylı oxucuları adından Fərrux müəllimi təbrik edir, ona cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

Redaksiya heyəti